

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 8 (21.919)

16 yanvar 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə təkbətək görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın Baş naziri Boyko Borisovu qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Görüşdə ikitərəfli siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi bildirilib. Bolqarıstanın Baş nazirinin Azərbaycana səfərinin əlaqələrin möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olunub, ikitərəfli münasibətlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstanın Baş naziri Boyko Borisov görüşdə çıxış ediblər.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov mətbuata bəyanatlarla çıxış ediblər.

## "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyində xidməti yaşayış binası istifadəyə verilib







Muxtar respublikada sərhəd xidmətinin təkmilləşdirilməsi ilə yanaşı, sərhədçi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyindəki xidməti yaşayış binasının əsaslı şəkildə yenidən qurulması da bu sahədə görülən işlərin davamıdır.

Yanvarın 14-də sərhədçi ailələri üçün nəzərdə tutulan xidməti yaşayış binası əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək demişdir ki, muxtar respublikada aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri ilə bərabər, hərbi hissələrdə zabit və gizir ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdən kənarda qalmayıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsi tərəfindən "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının ərazisindəki yaşayış binasının əsaslı şəkildə yenidən qurulması da bu tədbirlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni ildə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında xidməti yaşayış binasının yenidənqurma işlərindən sonra istifadəyə verilməsi münasibətilə sərhədçi ailələrini təbrik edərək demişdir: Ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət göstərilir, xidmətin təşkili üçün hərtərəfli şərait yaradılır. Bununla yanaşı, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, yeni yaşayış binaları tikilir, mövcud yaşayış binaları yenidən qurulur, qüsursuz xidmət edən hərbi qulluqçulara mənzillər verilir. Bütün bunlar da Azərbaycan dövlətinin orduya və zabit ailələrinə göstərdiyi qayğının, ordu quruculuğu sahəsində görülən işlərin nümunəsidir.

Ali Məclisin Sədri demişdir: "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında və zastavalarda geniş quruculuq işləri aparılmış, müasir infrastruktur yaradılmışdır. Muxtar respublikada sərhəd xidməti təkmilləşdirilməklə yanaşı, sərhədçi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır. Bu gün istifadəyə verilən yaşayış binası sovet dövründə tikildiyi üçün istismar müddətini başa vurmuşdu. Ona görə də binada yenidənqurma işlərinin aparılmasına ehtiyac yaranmışdı. Naxçıvan Muxtar Respublikası büdcəsinin qənaəti hesabına yaşayış binasında yenidənqurma işləri aparıldı, sərhədçi ailələri üçün müasir və təhlükəsiz yaşayış şəraiti yaradıldı. Yaradılan bu abadlığı qorumaq, təmizliyə və səliqə-sahmana diqqət yetirmək isə binada yaşayan ailələrin üzərinə düşən vəzifədir.

"Ölkəmizin sərhədlərini qoruyan zabit ailələri üçün yaradılan bu şərait, eyni zamanda Azərbaycan dövlətinin öz ordusuna, onun zabitlərinə və ailələrinə göstərdiyi qayğının daha bir ifadəsidir", – deyən Ali Məclisin Sədri bir daha sərhədçi ailələrini təbrik etmişdir.

Sərhədçi ailələri adından minnətdarlıq edən Aytən Quliyeva demişdir: Muxtar respublikada aparılan geniş quruculuq işləri "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasını da əhatə etmişdir. Yaşadığımız hərbi şəhərcikdə hərtərəfli şərait yaradılıb. Bu gün müasir mənzillər sərhədçi ailələrinin istifadəsinə verilir. Görülən işlər, yaradılan şərait rahat yaşayışımızı təmin edir. Aytən Quliyeva doğum günü münasibətilə bütün sərhədçi ailələri adından Ali Məclisin Sədrinə təbriklərini çatdırmışdır.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, bina zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarətdir. 65 mənzilli və 6 girişdən ibarət olan binada elektrik, qaz, rabitə, su və kanalizasiya xətləri yenilənmiş, mənzillərin giriş qapıları və pəncərələri, eləcə də binanın giriş qapıları və dam örtüyü tamamilə dəyişdirilmiş, izolyasiya qatı verilmiş, pilləkənlər əsaslı təmir olunmuşdur. Dəmir-beton konstruksiyalarla möhkəmləndirilən binanın fasadına travertin üzlük çəkilmişdir.

Binanın həyətində də abadlıq işləri aparılmış, yeni park salınmış, uşaq əyləncə qurğuları istifadəyə verilmişdir.

Həmin gün "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının hərbi şəhərciyindəki digər yaşayış binasında 2 zabit ailəsi mənzillə təmin olunmuşdur.

Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, üç və dördotaqlı mənzillərin hər ikisində əsaslı təmir işləri aparılmış, lazımi kommunal məişət şəraiti yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində müasir yaşayış binasının təməlatması olmuşdur

Bu gün Naxçıvan Muxtar Respublikası davamlı inkişaf dövrünü yaşayır. Bütün yaşayış məntəqələri müasir görkəmə qovuşub. Naxçıvan şəhərində də geniş quruculuq işləri aparılır, yeni yaşayış binaları inşa olunur. Əhalinin rifahının yaxşılaşması insanların rahat və müasir mənzillərə olan tələbatını daha da artırır. Bu səbəbdən də Naxçıvan şəhərində müasir memarlıq quruluşuna malik ictimai yaşayış binalarının tikintisinə xüsusi diqqət yetirilir.

Yanvarın 14-də Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yeni yaşayış binasının təməlatması olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yaşayış

Ardı 2-ci səhifədə





binasının layihəsinə və əraziyə baxmışdır.

Məlumat verilmişdir ki, 44 mənzilli 6 mərtəbəli yeni yaşayış binası milli və müasir memarlıq üslubunda inşa olunacaqdır. Binada ikiotaqlı, üçotaqlı, dördotaqlı, yeddiotaqlı və doqquzotaqlı mənzillər yerləşəcəkdir. Mənzillərin sahəsi ikiotaqlılarda 90, üçotaqlılarda 110 və 150, dördotaqlılarda 153, 165 və 175, yeddiotaqlılarda 325 və 360, doqquzotaqlıda isə 420 kvadratmetr olacaqdır. Yaşayış binasında lift quraşdırılacaq, zirzəmidə 29 yerlik avtomobil dayanacağı yaradılacaqdır. 4 girişi olan binanın birinci mərtəbəsində 12 mağaza istifadəyə veriləcəkdir.

Ali Məclisin Sədri beton qarışığını bünövrəyə tökərək binanın təməlini qoymuşdur.

Ali Məclisin Sədri tikinti işlərinin müasir mühəndis texniki tələblərə uyğun aparılması və keyfiyyət amilinə ciddi diqqət yetirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Culfa rayonunun Dizə kəndi 2018-ci ildə abadlaşan ilk yaşayış məntəqəsi oldu

Bu gün muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar, aparılan quruculuq işləri sakinlərin rahat yaşayışına hesablanıb. Yaşayış məntəqələrində, xüsusilə kəndlərdə yaradılan müasir infrastruktur Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir. Tikinti-quruculuq işləri əhalinin məskunlaşmasına öz töhfəsini verir, insanlar doğma yurd yerlərinə daha sıx bağlanırlar.



## Dizə kənd avtomobil yolu yenidən qurulmuşdur

Yanvarın 15-də Culfa rayonundakı Dizə kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, uzun müddət istismar olunduğu üçün yolda yenidənqurma işlərinin aparılmasına ehtiyac yaranmışdır. Kənddə kompleks tikinti işləri aparılarkən 8,9 kilometrlik yol da yenidən qurulmuşdur. Yenidənqurma işləri zamanı bütün mühəndis texniki tələblərə əməl edilmiş, yol yatağı genişləndirilərək asfalt örtük salınmış, 49 su keçidi qoyulmuş, 135 metrlik beton kanal çəkilmişdir. Avtomobillərin rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə 5,8 kilometrlik yol hamarlanmış və qum-çınqıl qatı verilmişdir.

## 2018-ci ildə ilk məktəb binası Dizə kəndində istifadəyə verildi

Muxtar respublikanın inkişafının əsasında təhsil quruculuğu dayanır. Ötən il muxtar respublikada 10 məktəb binası istifadəyə verilmişdir. Bu il də məktəb binalarının tikintisinə xüsusi diqqət yetirilir.

Yanvarın 15-də Dizə kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbin açılışını etmiş, yaradılan şəraitlə maraqlanmışdır.

Bildirilmişdir ki, 3 mərtəbəli yeni məktəb binasında müasir tədrisin tələblərinə uyğun şərait yaradılmış, elektron lövhələr, kompüterlər və digər müasir tədris avadanlıqları quraşdırılmışdır. 234 yerlik məktəbdə 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, şahmat sinfi, kitabxana, kompüter sinfi, müəllimlər otağı, hərbi kabinə, idman zalı və bufet vardır.

Ali Məclisin Sədri birinci sinifdə və məktəbəqədər hazırlıq qrupunda tədrisin təşkili







ilə maraqlanmışdır. Bildirilmişdir ki, bu il birinci sinifdə 14 şagird təhsil alır. Məktəbəqədər hazırlıq qrupuna isə 12 uşaq qəbul olunub.

Hərbi kabinəyə baxış zamanı qeyd olundu ki, məktəbdə şagirdlərin hərb sənətinə marağının artırılması diqqətdə saxlanılır. Ötən il bir şagird Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. Bu il isə məktəbdən 5 şagird liseyə sənəd verəcəkdir.

Elektron lövhəli sinifdə ümumtəhsil məktəbləri ilə Naxçıvan Dövlət Tarix Muzeyi arasında keçirilən distant dərs izlənilmişdir.

Kitabxana fondunda 1573-ü dərslik və 1585-i bədii ədəbiyyat olmaqla, 3158 kitab vardır. Burada oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb. Kompüter sinfində 19 lisenziyalı və müvafiq proqram təminatı olan kompüter quraşdırılmış, kompüterlərin internetə çıxışı təmin edilmişdir. Kimya, biologiya və fizika laboratoriyalarında müasir təcrübə avadanlıqları qoyulmuşdur.

Ali Məclisin Sədri ötən il gənc naxçıvanlı şahmatçının FİDE ustası adına layiq görüldüyünü bildirmiş, şagirdlərin şahmata marağlarının artırılmasının vacibliyini qeyd etmiş, kimya və biologiya müəllimlərinin təkmilləşdirmə kurslarında iştirakı, dərslərin qavrama yolu ilə öyrədilməsi və elektron dərsliklərdən istifadə ilə bağlı tapşırıqlar vermişdir.

Daha sonra Ali Məclisin Sədri məktəbin müəllimləri ilə görüşmüş, Dizə kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə onları təbrik edərək demişdir: Yeni ildə ilk məktəb binası Dizə kəndində istifadəyə verilir. Hansı ölkədə təhsil inkişaf edirsə, həmin ölkənin bütün sahələrində inkişaf təmin olunur. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki,

*Ardı 3-cü səhifədə*

*“Hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun təhsilidir”.* Həqiqətən də bütün sahələrdə inkişafı təmin etmək, yaxşı mütəxəssis hazırlamaq istəyiriksə, onda gənc nəslə yaxşı təhsil verməliyik. Təhsilin əsası da orta məktəblərdə qoyulur. Ona görə də Dizə kənd tam orta məktəbində şagirdlərin təhsilinə ciddi diqqət yetirilməli, onlar bacarıq və həvəslərinə uyğun ixtisaslara, müxtəlif peşə sahələrinə yönləndirilməlidirlər. Məktəbdə bu tədbirlərin həyata keçirilməsi üçün lazımi şərait yaradılıb.



Ali Məclisin Sədri demişdir: Dizə kənd tam orta məktəbinin yaxşı təhsil ənənələri vardır. Ötən tədris ilində qazanılan nailiyyətlər onu deməyə əsas verir ki, kollektiv məktəbin təhsil ənənələrini davam etdirir. Məktəbin məzunları yüksək bal toplayaraq ali məktəblərə qəbul olunublar. Bütün bunlar dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, məktəbin bir müəllimi “Ən yaxşı müəllim” mükafatına layiq görülmüş, kənd məktəbi üçün müasir bina tikilmişdir. Kollektiv yaradılan şəraitdən istifadə edərək nailiyyətlərini daha da artırmalıdır.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə kollektivə təşəkkür etmiş, onlara tədrisdə uğurlar arzulamışdır.

Müəllim Firuzə Əliyeva minnətdarlıq edərək deyib: Muxtar respublikanın bütün yaşayış məntəqələrində, eləcə də kəndlərdə geniş quruculuq işləri aparılır. Təhsil quruculuğu həyata keçirilən tədbirlərin əsasını təşkil edir, hər il yeni məktəb binaları istifadəyə verilir. Bu gün açılışı olan Dizə kənd tam orta məktəbi də muxtar respublikada təhsilə göstərilən qayğının nəticəsidir. Yaradılan müasir tədris şəraiti müəllim kollektivinin qarşısında mühüm vəzifələr qoyur, məsuliyyətimizi artırır. Əmin edirik ki, bundan sonra daha səylə çalışacaq, ölkəmiz üçün vətənpərvər və yüksək biliyə malik gənclər yetişdirəcəyik.

## Dizədə kənd mərkəzi istifadəyə verildi






Yanvarın 15-də Dizə Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını bildirən lenti kəsmişdir.

Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, kitabxana, klub, statistika otağı və 42 yerlik iclas zalı vardır.

Kənd kitabxanasında 6877 kitab vardır. Qeyd olunmuşdur ki, sakinlərin kitab mütaliəsinə marağı böyükdür. Hazırda kitabxananın 151 oxucusu vardır. Yaradılan müasir şərait, xüsusilə kitab fondunun yeni ədəbiyyatlarla zənginləşdirilməsi oxucular tərəfindən rəğbətlə qarşılanır.

Ali Məclisin Sədri Dizə kəndində ədəbiyyata böyük maraq göstərildiyini bildirmiş, bu kəndin yetirməsi gənc şairə Gülsadə İbrahimlinin hələ orta məktəbdə oxuyarkən dövlət qayğısı ilə iki kitabının çap olunduğunu xatırlatmış, kitabxana işinin təşkili ilə bağlı tövsiyələr vermişdir.



Baytarlıq məntəqəsinə baxış zamanı qeyd olundu ki, kənddə heyvandarlıq və arıçılıq inkişaf etdirilir. Heyvanların baş sayının artırılmasında süni mayalanma işinə xüsusi diqqət yetirilir.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sədri Ədalət Əhmədov demişdir ki, hazırda ərazi ilk təşkilatının 152 üzvü vardır. Onlardan 65-i qadın, 48-i isə gəncdir. Kənddə görülən kompleks quruculuq işləri sakinlər tərəfindən razılıqla qarşılanır. Sabitlik, inkişaf və tərəqqi insanların sabaha olan inamını artırır, partiyamızın sıraları genişlənir. Çünki hər kəs yaxşı bilir ki, görülən bu işləri Yeni Azərbaycan Partiyası həyata keçirir. Partiya üzvləri bundan sonra da kəndin inkişafında, bugünkü abadlığın və müasirliyin qorunub saxlanmasında yaxından iştirak edəcəklər.

Rabitə evində poçt bölməsi və 384 yerlik ATS quraşdırılıb. Kənddə sürətli internetə çıxış imkanı yaradılıb, dayanıqlı rabitə xidməti təmin olunub. Hazırda kənddə 192 telefon və 48 internet istifadəçisi vardır.

Kənddə səhiyyə xidməti hərtərəfli təşkil olunmuşdur. Feldşer-mama məntəqəsi 4 otaqdan ibarətdir. Burada ilkin tibbi xidmətin göstərilməsi üçün lazımı avadanlıqlar, ilkin tibbi yardım və peyvənd çantası qoyulmuşdur. Bildirilmişdir ki, kənddə hamilə qadınlara patronaj xidməti və peyvənd işi diqqətdə saxlanılır, səhiyyə maarifinə xüsusi əhəmiyyət verilir.

## Xidmət mərkəzində 5 sakin daimi işlə təmin olunub






Həmin gün Dizə kəndində xidmət mərkəzi də istifadəyə verildi.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsdi, mərkəzin fəaliyyəti ilə maraqlandı.

Bildirildi ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları, 2 anbar fəaliyyət göstərir. Mərkəzdə 5 nəfər işlə təmin olunub. Mağazada kənddə fəaliyyət göstərən ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların satışına daha çox üstünlük verilir.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüş oldu. Ali Məclisin Sədri Dizə kəndinin abad yaşayış məntəqələrinin sırasına qoşulması münasibətilə kənd sakinlərini təbrik edərək demişdir: 2018-ci ildə muxtar respublikanın ilk abadlaşan yaşayış məntəqəsi Dizə kəndi oldu. Aparılan quruculuq işləri Dizə kəndini müasir yaşayış məntəqəsinə çevirmişdir. Kənddə sakinlərin rahat yaşayışı tam təmin olunub. Dizə kəndinin məhsuldar torpaqları, zəhmətkeş insanları və yaxşı təsərrüfat ənənələri vardır. Həyata keçirilən tədbirlər bundan sonra da kəndin inkişafına töhfə verəcəkdir. Sakinlər yaradılan bu şəraitdən istifadə edərək təsərrüfatlarını daha da genişləndirməli, torpaqlardan səmərəli istifadə olunmalı, bol məhsul istehsal edilməlidir.

Kənd sakini Abbas Tağıyev sakinlər adından minnətdarlıq edərək demişdir: Dizə kəndinin müasir yaşayış məntəqəsinə çevrilməsi ölkəmizin inkişafının, dövlət başçısı tərəfindən həyata keçirilən quruculuq xəttinin bəhrəsidir.

*Ardı 4-cü səhifədə*

Kəndimizdə kompleks quruculuq işləri aparılıb. Yol mədəniyyətdir: bu gün kəndimizin müasir yolu vardır. Torpaq kəndlinin iş yeridir: bu gün kəndimizdə hər bir ailənin pay torpağı vardır. Eyni zamanda müasir məktəb binası övladlarımızın daha yaxşı təhsil almasına imkan verəcəkdir. Kənd və xidmət mərkəzləri isə sakinlərə göstərilən xidmətin səviyyəsini xeyli yaxşılaşdıracaqdır. Bundan başqa, kənddə hər bir evə içməli su xətti çəkilib. Elektrik enerjisi və təbii qaz fasiləsiz verilir, əhaliyə müasir rabitə xidməti göstərilir. Bu şəraitin qarşısında sakinlərin üzərinə bir vəzifə düşür: o da daha çox işləyərək ölkəmizin inkişafında pay sahibi olmaqdan ibarətdir. Mən 6 il bundan əvvəl Ali Məclis Sədrinin qayğısı ilə taxılçılığın inkişafı üçün dövlətdən kredit götürüb 4 hektarda buğda əkdim. O zaman söz vermişdim ki, təsərrüfatımı genişləndirəcəm. Hazırda 84 hektar sahədə taxıl əkirəm. Kartofçuluqla da məşğul oluram. Xüsusilə dəmyə taxıl əkini sahələrini genişləndirirəm. Dövlət tərəfindən subsidiyaların verilməsi, texnika və gübrə təminatı həm təsərrüfatımı genişləndirməyə, həm də bol qazanc götürməyimə imkan verir. Bütün bunlar dövlətimizin yaratdığı şəraitin nəticəsidir. Xoşbəxtik ki, bizdən sonra gələn nəsil də güclü və qüdrətli dövlətin vətəndaşları olacaqlar.



Ali Məclisin Sədri nümunəvi təsərrüfat yaratdığına görə Abbas Tağıyevə təşəkkür etmişdir.

* * *

Kənddə quruculuq işləri aparılarkən 380 metr fiber-optik kabel xətti çəkilmiş, 5000 metr rabitə xətti təmir edilmişdir. Həmçinin 1700 metr yüksəkgərginlikli və 210 metr yeraltı elektrik xətti çəkilmiş, 5503 metr elektrik xətti yenilənmişdir. Yeni tikililərə 190 metrlik qaz xətti çəkilmiş, 4408 metrlik qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Əhalinin içməli su təminatı da yaxşılaşdırılmış, 320 metr yeni içməli su xətti çəkilmiş, 1340 metr içməli su xətti təmir olunmuşdur. Həyətyanı sahələri sel sularının zərərli təsirindən qorumaq üçün 600 metr istiqamətləndirici bənd tikilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## *“Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”* rəsmi internet səhifəsi istifadəyə verilmişdir

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrında Bakı şəhərində keçirilmiş altıncı konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsinin 2016-cı il noyabrın 25-də Naxçıvan şəhərində keçirilən iclasında Tədbirlər Planı təsdiq olunmuş və icrasına başlanılmışdır. Tədbirlər Planına əsasən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018” rəsmi internet səhifəsi yaradılmışdır.

Azərbaycan və ingilis dillərində hazırlanan “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018” rəsmi internet səhifəsi *(www.imp.nakhchivan.az)* 2018-ci il yanvarın 13-dən istifadəyə verilmişdir.

İnternet səhifəsi 8 əsas və 27 alt bölmədən ibarətdir. “Ana səhifə” bölməsi “Rəsmi sənədlər” və “Tədbirlər” alt bölmələrindən ibarətdir. “Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan-2018” loqotipinin hazırlanması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı “Rəsmi sənədlər” bölməsində yerləşdirilmişdir. “Tədbirlər” bölməsində isə Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin həllinə dair məlumatlar əksini tapmışdır.

Saytın “Naxçıvan haqqında” başlıqlı əsas bölməsi “Naxçıvan Muxtar Respublikası”, “Təbiəti”, “Şəhər və rayonları” alt bölmələrindən ibarətdir. Bu bölmələrdə muxtar respublikanın tarixi, fauna və florası, inzibati ərazi bölgüsü, nəqliyyat infrastrukturu, inzibati binaları, konsert-tamaşa, təhsil müəssisələri və digər sahələr haqqında məlumatlar yerləşdirilmişdir.

Saytın “Mədəniyyət” bölməsi “Məscidlər”, “İmamzadələr”, “Tarix-memarlıq abidələri”, “Sənətkarlıq”, “Memarlıq”, “Milli rəqslər”, “Milli musiqi alətləri”, “Milli geyimlər”, “Milli mətbəx”, “Muzeylər”, “Teatrlar” və “Kitabxanalar” olmaqla, 12 alt bölmədən ibarətdir. Bu bölmələrdə mədəniyyət və incəsənət sahələri haqqında məlumatlar yerləşdirilmiş, həmçinin “Naxçıvan milli geyimləri” və “Naxçıvan mətbəxi” elektron kitablarına keçidlər verilmişdir. Saytda muxtar respublikada fəaliyyət göstərən muzeylər, teatrlar və kitabxanalar haqqında ətraflı məlumatlar verilmişdir.

“Turizm” adlanan bölmədə Naxçıvan Muxtar Respublikasının turizm potensialı, dini turizm və müalicə turizmi obyektləri, o cümlədən yerləşdirmə obyektləri haqqında ətraflı məlumat verilmiş, ünvan və əlaqə vasitələri qeyd olunmuşdur.

“Fotoqalereya” və “Videoqalereya” bölmələrində muxtar respublikanın tarix-mədəniyyət abidələri, turizm potensialı, parkları, mehmanxanaları, müasir infrastrukturu haqqında foto və videomateriallar yerləşdirilmişdir.

“Faydalı informasiya” bölməsində muxtar respublikada fəaliyyət göstərən banklar və xarici nümayəndəliklər haqqında ətraflı məlumat verilmiş, ünvan və əlaqə vasitələri yerləşdirilmişdir. Həmçinin faydalı informasiya mənbələri sayılan digər elektron resurslara keçid linkləri verilmişdir.

“Qonaq rəyləri” bölməsində rəy dəftəri yaradılmış, muxtar respublikaya gələn qonaqların və saytdan istifadə edənlərin elektron qaydada rəy yaza bilmələri üçün şərait yaradılmışdır.

2018-ci il üçün Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı il ərzində keçirilən tədbirlər, görülmüş işlər və yeniliklər “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018” rəsmi internet səhifəsində *(www.imp.nakhchivan.az)* öz əksini tapacaqdır.

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət və Turizm Nazirliyinin***
***mətbuat xidməti***

## Fənn olimpiadasının qalibləri mükafatlandırılıb

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində fənn olimpiadaları qaliblərinin mükafatlandırılması ilə bağlı tədbir keçirilib.

Tədbirdə çıxış edən təhsil naziri Məmməd Qəribov bildirib ki, hər bir xalqın milli intibahını təmin edən ən zəruri vasitə təhsildir. Ona görə də ölkəmizin bütün regionlarında, həmçinin Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı prioritet istiqamət təşkil edir. Son 20 ildən artıq bir dövrdə təhsil müəssisələri üçün yeni binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması, ümumtəhsil məktəblərinin ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi təhsilin keyfiyyətinin yüksəldilməsinə müsbət təsirini göstərib.

Vurğulanıb ki, təhsilə göstərilən qayğının nəticəsidir ki, məktəbi bitirən məzunların göstəriciləri ilbəil yaxşılaşır, ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında 500-700 intervalında bal toplayanların sayı artır.

Qeyd edilib ki, fizika, kimya, biologiya, riyaziyyat, Azərbaycan dili və xarici dil fənləri üzrə keçirilən olimpiadada VII-XI sinif şagirdləri iştirak ediblər. Olimpiadanın birinci – rayon (şəhər) mərhələsində 1260 nəfər iştirak edib. Bu mərhələdə qalib olmuş 296 şagird Naxçıvan şəhərində keçirilən final mərhələsinə qatılıb. Həmin mərhələdə 94 şagird qalib gəlib. Onlardan 34-ü I, 29-u II, 28-i isə III yerləri qazanıb, 3 nəfər isə həvəsləndirici yerləri tutub.

Sonda qaliblər diplom və qiymətli hədiyyələr təqdim olunub.

**✍ Fatma BABAYEVA**

## Qaliblər müəyyənləşib

Babək Rayon Uşaq-gənclər şahmat məktəbində rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə keçirilən “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat turnirinə yekun vurulub.

Turnirin keçirilməsində məqsəd yeniyetmə və gənclər arasında şahmat idman növünə marağın artırılması və məktəblərarası idman əlaqələrinin inkişaf etdirilməsindən ibarət olub.

Turnirdə 16 komanda iştirak edib. Hər komandanın tərkibində 3 oğlan 1 qız olmaqla, 64 zəka sahibi mübarizə aparıb. Turnirin sonunda Babək qəsəbə 1 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. Hacıvar kənd tam orta məktəbinin komandası ikinci, Babək qəsəbə 2 nömrəli tam orta məktəbin komandası üçüncü olub.

Sonda qaliblərə təşkilatçılar tərəfindən fəxri diplomlar təqdim edilib.

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində humanitar tibbi aksiya keçirilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir.

Türkiyə Respublikası Hacəttəpə və Ankara Tibb universitetləri Endokrinologiya və metabolizma kafedrasında, həmçinin ABŞ-ın Georgiya ştatındakı Emori Universitetində təhsil almış, Türkiyə, ABŞ və Avropa Endokrinoloji Cəmiyyətinin üzvü, hazırda Bakı şəhərindəki “HB Güvən” klinikasında tibbi fəaliyyət göstərən endokrinoloq Rövşən Həsənovun rəhbərliyi ilə 7 nəfərlik yüksəkixtisaslı həkim heyəti yanvarın 12-dən 15-dək Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində humanitar aksiya keçirib.

Aksiya zamanı pasiyentlər müxtəlif xəstəliklər üzrə tibbi müayinələrdən keçiriliblər. 6 uşaq üzərində cərrahi əməliyyat aparılıb. Xəstələrdə müşahidə olunan zob düyünlərinin biopsiyası və ultrason müayinələri aparılıb. Şəkərli diabet xəstəliyinin risk amilləri araşdırılıb, xəstələr həmçinin ortopedik-travmatoloji və psixiatrik müayinələrdən keçirilib. Aksiya müddətində 411 nəfər müayinələrlə əhatə olunub.

Keçirilən növbəti humanitar aksiyada yerli həkim və orta tibb işçiləri də iştirak ediblər. Bu, onların peşə bacarıqlarının yüksəldilməsində mühüm əhəmiyyət kəsb edib.

Müasir müalicə metodlarının öyrənilməsi və tətbiqi üçün yüksəkixtisaslı mütəxəssislərin iş təcrübəsindən istifadə olunur.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

## Boks üzrə şəhər birinciliyinə yekun vurulub



İlham Əliyev adına Olimpiya-İdman Kompleksində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.

Hər iki qurumun təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Babək, Culfa, Kəngərli və Şərur rayonlarının idmançıları da öz güclərini sınayıblar. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 19 çəki dərəcəsində 60-a yaxın dəri əlcək sahibi mübarizə aparıb.

Gərgin mübarizə şəraitində keçən döyüşlərdə Fikrət Abbasov (26 kiloqram, Naxçıvan), Tural Rzayev (28 kiloqram, Kəngərli), Sinan Əbilov (30 kiloqram, Kəngərli), Məhəmməd Fərəcov (34 kiloqram, Naxçıvan), Alişan İsmayılov (36 kiloqram, Şərur), Fəxrəddin Əliyev (38 kiloqram, Naxçıvan), Nazim Abazərli (42 kiloqram, Naxçıvan), Əli Seyidov (46 kiloqram, Kəngərli), İlkin Baxşıyev (48 kiloqram, Babək), Nizami Novruzov (50 kiloqram, Naxçıvan), Çingiz Qasımov (51 kiloqram, Kəngərli), Kənan Şəfiyev (52 kiloqram, Şərur), Hüseyn Hüseynov (53 kiloqram, Naxçıvan), Ayxan Süleymanov (54 kiloqram, Naxçıvan), Yusif Əliyev (57 kiloqram, Naxçıvan), Cəbi İsayev (60 kiloqram, Kəngərli), Əli Vəliyev (66 kiloqram, Naxçıvan), Əli Nəbiyev (70 kiloqram, Naxçıvan) və Məhəmməd Novruzov (75 kiloqram, Culfa) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Hacıyeva İntizar Rasim qızının adına Naxçıvan Şəhər Uşaq İncəsənət Məktəbi tərəfindən verilmiş şəhadətnamə itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Muxtar Məmmədov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1490. Sifariş № 45**